# TANRI YOLÇUSU



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Talesiz məmləkətim,**
**Dağın arandan keçir.**
**Torpağının ətri də,**
**Əvvəl şorandan keçir.**

**And ocağın Kəbədə,**
**Qan verməyə növbədə.**
**Elə daim tövbədə,**
**Tövbən Qurandan keçir.**

**Qismətin acısıyam,**
**Dəryanın damcısıyam.**
**Mən Tanrı yolçusuyam,**
**Yolum Turandan keçir.**

Bu şeirin müəllifi Rafiq Ələkbərdir. Olsun ki, bizim oxucular, poeziya həvəskarları artıq bir neçə kitabın müəllifi olan şairi yaxşı tanımırlar. Azərbaycanda şair çoxdur, hər gün nəşriyyatlar neçə şeir kitabı çapdan buraxırlar. Amma Rafiqin əsl şair olduğuna heç bir şübhəm yoxdur və inanıram ki, gec-tez oxucular onun da şeirlərinin və şeir kitablarının intizarında olacaqlar. Bəlkə də oxuculara məlum deyil ki, böyük şairimiz Məmməd Araz onun şeirləri barədə çox isti və səmimi sözlər deyib: "Sözünün sehri ilə ustad şairlərin dəstxəttinə yüksələn Rafiq həqiqətən də istedadlı, ilhamlı və zəhmətkeş söz sənətkarıdır". Bəlkə də oxuculara məlum deyil ki, istedadlı tənqidçi Rüstəm Kamal Rafiqin Seçilmiş əsərlərindən ibarət olan kitabına ön söz yazıb, onun poeziyasını yüksək qiymətləndirib.

"Yolum Tanrıdan keçir" - öncə misal gətirdiyim şeirin son misrası Rafiqin şeirlərinin başlıca pafosunu təşkil edir. Rafiq ürfan - sufi təfəkkürlü şairdir. Və onun şeirlərinə də məhz bu aspektdən yanaşmaq lazımdır.

Böyük füzulişünas, mərhum Sabir Əliyev dahi şairin "Qəd ənarələşqü lil - üşşaqi minhacəl-hüda Saliki-rahi-həqiqət eşqə eylər iqtida" mətləli qəzəlini şərh edib və mən istəyirəm Rafiqin şeirlərinə də dəxli olduğu üçün həmin şərhin bir parçasını, elə bu mətlə beytin mənasını nəzərinizə çatdırım. "Yaradılış (xilqət) Allahın (xaliq) qüdrətinin təzahürü olub, bu qüdrəti yaradanlara (məxluq) anlatmaq üçün baş vermiş izah olunmaz bir möcüzədir. Xaliqlə məxluqat əslində mütləq bir vəhdət, bölünməz bir bütövlük təşkil edir. Allahın məxluqu yaratmasından məqsəd öz gücünün bəyanıdır, məxluqun yaranmasından niyyət öz idrakının sınağıdır. Allahın maddi təzahür nişanı olan əşrəfül-əşya (yaranmışların ən dəyərlisi), yəni insan müvəqqəti olan məcaz (bu dünya) mərhələsində əzəli və əbədi olan həqiqət (o dünya) aləminə qovuşmaq üçün müəyyən sınaqlardan keçməlidir Allaha gedən yol, sufi təliminə görə, şəriət, təriqət, mərifət və həqiqət kimi dörd mərhələdən keçir. İnsan şəriət dövründə meyl və pəhriz məqamlarını bilməli, halal və haram hüdudlarını ayırmalı, zöhd və vərə şərtlərinə əməl etməlidir; ikinci mərhələdə aydın təriqət tutmalı, mərifət mərhələsində Allahı dərk və qəbul etmək dərəcəsində kamilləşməli, nəhayət, həqiqət mənzilinə yetib haqqa qovuşmalıdır".

Rafiq Ələkbərin "Ürfan və eşq görüşləri" silsiləsindən olan şeirlərində də müəyyən dərəcədə sufi düşüncələri öz əksini tapmışdır. Əlbəttə, qəti hökm vermək olmaz ki, Rafiq birmənalı şəkildə sufi dünyagörüşünün bütün şərtlərinə tam əməl edir. Amma o şeirlər əsrlərdən bəri bizim klassiklərin Tanrı ilə qovuşmaq, zərrənin küllə qovuşmaq və beləliklə, öz əslinə qayıtmaq, həqiqət mənzilesinə çatmaq ideyası ilə səsləşir.

Allaha doğru yol Allahı sevməkdən başlayır və bu da ilahi eşq ilə mümkündür. İlahi eşq ürfan poeziyasının başlıca atributudur. İnsanın Tanrı məhəbbəti ilahi eşqin vasitəsilə reallaşır, haqqa doğru yol gedən insan bu ilahi eşq ilə istəyinə çata bilər. Ürfan əhli üçün Eşq yol göstərən işıqdır, nur mənbəyidir.

Tanrı Rafiqin şeirlərində Yaradıcı, Qurucu, Kainatın, Dünyanın fövqündə duran əzəli, əbədi bir qüvvədir:

**Bütlərə iman edənlər,**
**Tanrıyamı şəkk yaradıb.**
**Yoxdur Tanrıdan qüdrətli**
**Kainatı tək yaradıb.**

**Yanacaqdır əli əyri,**
**Sözüylə əməli əyri.**
**Yaltaqları belə əyri,**
**Təmizləri pak yaradıb.**

**Öyünməyək mif etməyə,**
**Tanrını tərif etməyə,**
**O, özün tərif etməyə**
**Peyğəmbər, mələk yaradıb.**

**Əvvəl-axır bəşər bir gün,**
**Seçər xeyir, ya şər bir gün.**
**Başlayacaq məhşər bir gün,**
**O günü Fələk yaradıb.**

Rafiq Ələkbərin "Ürfan və eşq görüşləri" silsiləsində bir çox şeirlər Tanrıya məhəbbətin izharıdır və bu da təbiidir. İnsan öz Tanrısını sevməlidir. Lakin bir cəhəti də vurğulayaq ki, Tanrıya qovuşmaq istəyi İnsanı yaşadığı mühitdə çox çətinliklərlə üzləşdirir. Haqq yolundan əl çəkməyən İnsan hər dəm haqsızlıqlarla üzləşir, Dərd onu zamanın iztirablarına, həmcinslərinin tənələrinə sürükləyir. "Dırnağımla yer qazıram, Daşdan çıxır tikəm hələ. Mən qəmi hara göndərim, Mən qəmə şərikəm hələ. ...Dərdi çox verib Yaradan, Hər çiynimdə çəkəm hələ"-etirafı da burdan yaranır. Lirik qəhrəmanın - ürfan bəndəsinin həyat, ölüm, dünya və kainat, xeyir və şər haqqında düşüncələri də nahaq deyil. Çünki ürfan aşiqlərinin anlamı, dünyagörüşü adi təsəvvürlərdən qat-qat fərqlidir, fəlsəfi məqamları əhatə edir və bu fəlsəfə dini, əxlaqi məzmuna malikdir.

Rafiq Ələkbərin bir çox şeirləri sevgi haqqındadır və bu sevginin mənasına vardıqda, burada da ürfan elminə xas olan İlahi eşqin diktəsini hiss edirik. O, eşqi adi, real, gerçək münasibətlər müstəvisindən daha çox ilahi təsirə malik, insanı ucalığa səsləyən bir möcüzə hesab edir.

**Gül sözümə həsrət çiçək darıxır,**
**Zil nəğməmə əsən külək darıxır.**
**Canımdakı ruha mələk darıxır,**
**Mənim sevdam nə olacaq, ay Tanrım?**

Eşqi "qəlbin ruhu" adlandıran Rafiq Ələkbər bu hissi, bu ali duyğunu yaşadığı üçün şeirlərində ötəri, ani, keçib gedən anları deyil, xatirəyə, yaddaşa həkk olunan sevdalara üz tutur. Klassik poeziyadan, ürfan şairlərindən kifayət qədər bəhrələnən müəllif sevdiyi insanı hər cür adilikdən, prozaik hisslərdən uzaqlaşmağa çağırır.

Təbii ki, onun sevgi şeirlərində təsvir olunan SEVGİLİ obrazı bu günün, yaşadığımız zamanın ruhunu ifadə edir. Gözəllər, sevgili qadınlar bütün əsrlərdə aşiqlərə cəfa, zülm anları yaşatmışlar. Heç bir sevgidə birbaşa anlaşma, "vüsal kəbini" olmamışdır. Onda sevgi şeirləri də yazmağa ehtiyac duyulmazdı. Onda bu misralar da yaranmazdı:

**Çalışdın qaçasan məndən uzağa,**
**Deyəsən bir az da qıvraqlaşmısan.**
**Nə vaxt yaxınlaşdım sənə bir addım,**
**Gördüm iki addım uzaqlaşmısan.**

**Qaçaqaç oyunu başlayıb, gülüm,**
**Uduzdun deyəcəm, yarım, incimə.**
**Sən məni taleyin küncünə qısıb,**
**Mən səni qovuram yerin küncünə.**

Rafiq Ələkbərin şeirlərinin əksəriyyəti heca vəznindədir və əsasən də, qoşmalar, gəraylılardı. Şeir texnikasına yaxşı bələddir. Bədii təsvir vasitələrinə yaxşı yiyələnib. Klassik poeziyamıza, aşıq şeirinə mükəmməl aşinalıq da özünü hiss etdirir. Tənqidçi həmkarım Rüstəm Kamal onun "Seçilmiş əsərləri"nə yazdığı ön sözdə bütün bunları qeyd etdiyindən üzərində dayanmıram. Amma iki məqamı nəzərə çarpdırmaq istəyirəm. Birincisi: onun qoşmalarında forma ilə məzmun arasında bitkinlik, uyarlıq qətiyyən pozulmur. Qoşmanın klassik şəkil xüsusiyyətləri daxilində məzmun sərbəstliyi, fikri obrazlı və poetik söyləmək məharəti diqqəti cəlb edir. Deyək ki, üç bəndlik bir qoşma əhval-ruhiyyə, hal-vəziyyət dinamikasını əks etdirir.

**Eşqin də yazılmış qanunları var,**
**Deyirsən əməl et, gülələr mənə.**
**Mən qəbul etmirəm qadağaları,**
**Təki qoy toxunsun gül əllər mənə.**

**Demirəm nə bəyən, nə gəlim xoşa,**
**Bənzətmə gəl məni hərdən naxoşa.**
**Yolumda çevrilsə əlvan naxışa,**
**Təsəlli verərmi bu güllər mənə?**

**Dərdə nə əlac var, nə də bir çarə,**
**Bəs onda nə etsin mən tək biçarə?**
**Ömrü səndən ötrü kəsib-biçərəm,**
**Bu yolda dəysə də güllələr mənə.**

Rafiq Ələkbər əgər belə demək mümkünsə, bir ömrün mənəvi-ruhi kardioqramasını çıxaran, onu hamımızın gözü qarşısında açıqlayan şairdir. Təbii ki, bu ruhi sənəddə çoxlu əyintilər də diqqətdən yayınmır.

Rafiqin yaxşı şeirləri ilə müqayisədə ortancıl, bəzən də boysuz nəzərə çarpan, dolğunlaşmasına ehtiyac duyulan şeirləri də var. Təbii ki, belə şeirlər hər şairdə olur. Əsas odur ki, onun şairlik istedadı var və bu istedad hər yeni şeirlər kitabında üzə çıxır. Hiss olunur ki, o, şeirə, poeziyaya Tanrının ona bəxş etdiyi bir əbədi yaşantı kimi baxır. O, şairliyi ruh hadisəsi hesab edir.

**Dedim bu dənizdə buz heykəl olum,**
**Cumsun dəstə-dəstə dalğa üstümə.**
**Məndən də pay düşsün buludlara qoy,**
**Sonra narın yağış yağa üstümə.**

**Dedim daş olaydım sal qayalarda,**
**Dünyanı daş kimi duyub qanaydım.**
**Çox zaman çörəyim daşdan çıxıbdır,**
**İndi də ömrümü daşdan yonaydım.**

**Nə olmaq istədim, insan yarandım,**
**Yerdə də, göydə də bitəcəyəm mən.**
**Deyəsən dünyaya ruh kimi gəldim,**
**Elə ruh kimi də gedəcəyəm mən.**

Bir şeirində Rafiq Ələkbər deyir ki: "Tanrının mənə verdiyi, Ən çətin sınaqdır ömrüm". Bu ömrü o, ŞAİR KİMİ yaşayır!